# KİÇİKLƏR ÜÇÜN BÖYÜK DƏRSLƏR

Hər bir yazının təkcə qələmə alınması yox, bir həyat materialı kimi müşahidə olunması da və nəhayət, düşüncəyə gətirilməsi ilə sənət nümunəsinə çevrilməsi də yazıçının istedadından asılıdır. Əlbəttə, səriştə də, təcrübə də, intellektual hazırlıq da... vacibdir. Şəfəq Nasir ədəbi-bədii yaradıcılığında ona görə oxucu üçün yüksək əyyarlı məhsul verir ki, onun kifayət qədər mənəvi bazası var. "Beyləqanın güllü yazı" kitabına toplanmış hekayələrin uğurunu şərtləndirən səbəblərdən biri də yazıçının seçdiyi məkanı birəl-birəl tanıması, bu məkanı yurd kimi qavraması və torpağına, daşına sevgi bəsləməsidir. Sanki müşahidə obyektini ərazinin hansı bir küncünə, bucağına yönəldirsə, həmin andaca ərazinin tərcüməyi-halı onun düşüncəsində canlanır. Beləliklə, əsasən haqqında söhbət açdığımız kitabda uşaqlar və yeniyetmələr üçün yazılmış hekayələrin cazibəsini yaradan da müəllifyer-yurd bağlılığı, müəllif-torpaq, Vətən sevgisidir.

"Sarı madyan" hekayəsi ilk baxışdan hər birimizin uşaqlıq həyatında görüb, gəldiyimiz və bəlkə icraçısı olduğumuz əhvalatlar əsasında yazılıb. Bəri başdan qeyd eləməyə dəyər ki, çoxumuzun əhəmiyyət vermədiyi, gördüyü, ancaq müşahidəsinə daxil edə bilmədiyi, ilk baxışdan xırda görünən, bəlkə də əhəmiyyətsizlik təsiri bağışlayan hadisələrdən Şəfəq Nasir daha böyük mətləbləri işıqlandırmaq vasitəsi kimi istifadə edir. "Sarı madyan" hekayəsində də belə "əhəmiyyətsiz", xırda bir əhvalat çox dəyərli bir uşaq nağılına çevrilir. Əvvəlcə müəllif hiss olunduğu qədər yaxşı tanıdığı mühitindən, əgər belə demək mümkünsə, Beyləqanın əsərin qəhrəmanı üçün doğma bir ocağından sakit, təmkinli bir təsvirlə "nağılına" başlayır. Ümumiyyətlə, Şəfəq Nasirin "nağılları"nda qeyri-adi heç nə axtarmaq lazım deyil. Bu "nağıllardakı" qeyri-adilik həyatın bir parçasını uşaq düşüncəsinə uyğun uyarılıq və reallıqla yazıya gətirməsidir. Müəllif hekayəsini nənə və nəvələri arasındakı yaşantılar əsasında qurur. O, hekayətini əvvəlcə nənənin ahıl çağından, ömrünün zirvəsindən başlayır. Maraqlı etnoqrafik cizgilər, yer, yurd, məkan təsvirləri, hətta nənənin tut kölgəsindəki xatirəli, kövrək... güzəranı: "Yaz güllərinin yanağı çatlayan bir vaxtdan Gilə nənənin taxtı Bedana tutun kölgəliyinə qoyulardı. Nənə də bütün yaz-yayı, lap payızın ortalarınacan həməncə taxtın üstündə rahatlanıb əli tutan iş-gücdən görərdi...Havalar istiləşmiş, yay gəlmişdi. Gilə nənə məxmər üzlü döşəkçədə qotazlı mütəkkəyə dirsəklənib təsbehin çevirirdi. Beşik dağından gələn sərin meh budaqları yellədikcə yetişib-şirinləşmiş tutlar tappıltıynan yerə tökülürdü. Nənə də böyür-başına tökülmüş ağappaq tutlardan götürüb ağzına atırdı". Burada diqqəti çəkən bir neçə məqam var. Qocalmış, həyatının kirdarını itirmiş nənənin özünə paytaxt elədiyi tut kölgəsi, özü də bedana tut kölgəsi. Müəllif bedana sözünü böyük hərflə yazır, yəni tutun adı kimi göstərir. Amma bu bedana adlanan tut meyvənin növü ilə bağlıdır, dənəsiz olur, şirin olur. Əslində xalq arasında bedana adlanan, yəni bidanə - dənəsiz adı tutun göstəricisidir. Çox şirin olur, dadlı olur. sanki həyat enerjisidir. Nənə də bu tutun kölgəsində dincələrkən yetişmiş tutların qopub düşməsi və onu hərdən yeməsi, özü də müəllifin dili ilə desək, götürüb ağzına atması sanki ona güc, enerji bəxş edir. Gilə nənə keçmişin rəmzidir. Nəvələr isə gələcəyin ünvanıdır. Nənə ilə nəvələri - Vüqarı, Bəhrəmi bir-birinə bağlayan, arada ünsiyyət körpüsü olan nənənin keçmiş həyatla bağlı xatirələridir.

Şəfəq Nasir hekayələrində mühiti elə real cizgilərlə təsvir edir ki, nəinki oxucu uşaqlar, hətta oxucu böyüklər də həmin həyatın şirinliyinə daxil olmaq, həmin mühitin dadına, tamına can atmaq istəyirlər. kənd həyatındakı güzəran, yaşayış tərzi, yayda qış tədarükü... maraqlı cizgilərlə verilir. Qurudulan meyvə, bağ-bağatdan dərilən məhsul, bir sözlə, kəndi yaşadan həyat tərzi o qədər cəlbedicidir ki, hər kəs belə kənddə yaşamağı istəyərdi düşüncəsinə gəlirik. Müəllif kifayət qədər kənddə uşaqların marağını təmin edən mühiti təsvir edir. Sonra birdən-birə elə hadisə baş verir ki, uşaqlar üçün nənənin dilindən maraqlı bir nağıl car olur. Nənə tutun kölgəsində dincələndə xəyala gedir, həyatının keçmişi ilə bağlı xatirələri yaddaşına gətirir. Doğrudur, müəllifin təbiri ilə desək, hərdən xatirələrini büküb döşəyinin altına qoyur. Amma nəvələrin hay-küyü çəkilən kimi yenidən o xatirələrin aləminə qayıdır. Bu dəfə də nənəni nəvələrin təzə hay-küyü keçmişdən qoparır. Uşaqlar evin arxa tərəfində çuxurdan bir at başı çıxarırlar. Və bunu nənəyə xəbər verirlər. Nənə isə bu xəbərin təsiri altında az qala çoxdan unudulmuş bir əhvalatı yadına salır. Əri, ömrünü birgə, xoşbəxt keçirdiyi Salah kişinin sarı madyanı bir vaxt dillər əzbəri idi. Qoçaq Salah kişinin igidliyinin bir tərəfi də elə sarı madyan olmuşdu. Nənənin at başına görə çox təəssirlənməsi nəvələri düşündürür. Onlar bu at başı haqqında soruşurlar. Nənə də olmuş və az qala yaddaşlardan itməkdə olan bir əhvalatı da xatırlayır. Salah kişi sarı madyanı ilə bazarlığa gedib. Apardığı məhsulu satıb. Əvəzində evi üçün, uşaqları üçün matah olanı, bir sözlə, ehtiyaclığı alıb. Geri qayıdanda yolda iki atlı onu yanlayıb atını, bazarlığını əlindən almaq istəyir. Hətta biri tüfəngin küpü ilə onun başına vurur. Ancaq Salah kişi özünü toparlayır, yəhərin qaşından yapışır, atın yalına yatır. Və sanki sarı madyan onu başa düşür yerdən qanad alır özünü Eyvazxanbəyliyə çatdırır. Bir sözlə, sahibini xilas edir. Nənə bu hekayəni çox şirin, təsirli bir dillə danışır. Və uşaqlar da bu təəssüratın təsiri altına düşürlər. Sanki onlar sarı madyanı olduğu kimi, bütün görkəmi ilə gözlərinin qabağına gətirirlər və əlbəttə, əməllərindən peşman da olurlar. Ona görə də təzədən həmin yerə qayıdıb atın başını və digər sür-sümükləri təzədən yığıb basdırırlar. Müəllif atın basdırılmağını, insanın dəfn edilməsi qədər urvatda təsvir edir. Sahibi Salah kişi bir vaxt razı olmamışdı ki, onun atı öləndə qurd-quşa yem olsun. Onu sədaqətinə uyğun hörmətdə tutmuşdu. Şəfəq Nasirin "Sarı madyan" hekayəsi uşaq və yeniyetmələrin yaddaşında qalmaq gücündədir. Uşaqlarda ata xüsusi ehtiram hissi yaradır. Bu da əsas veriri ki, müəllifin bizim xalqımızın yaddaşındakı at kultuna, tarixi ənənəvi münasibətini düzgün başa düşək. Müəllif istəyir ki, uşaqlar atın bizim xalqımızın tarixindəki rolunu düzgün anlasın. "Sarı madyan" hekayəsi dilin canlılığı, hadisələrin reallığı ilə oxucu cazibəsini təmin edir.

Biz artıq qeyd etdik ki, Şəfəq Nasir uşaqların həyatı ilə bağlı ən kiçik hadisələri belə canlılığı ilə yazıya gətirə bilir.

"Balaca Cavidin hekayələri" də çox maraqla oxunur. Bu hekayələr bir növ silsilə xarakteri daşıyır. Üç hekayədən ibarətdir.

"Cavid hardan tapıldı" uşaq həyatı ilə bağlı maraqlı hadisənin təsviridir. Çox kiçik olan Cavid görür ki, qonşu uşaqları onların qarpız yığdıqları yerə külfədən girirlər. Cavid bunu görür. O da həmin külfədən içəriyə girir. Amma qarpız tırının arxasına düşür. Qapı da bağlıdır. Burdan çıxa bilmir. Ana-ata, qohum-əqraba, bütün kənd onu axtarır. Hamı həyəcanlıdır. Birdən təsadüfən görürlər ki, nəsə boğunuq bir səs gəlir. Uşağı qarpız tırının arxasından tapıb çıxarırlar. Burada müəllif körpə uşaqlara qayğı vacibliyini göstərmək istəyir. Körpə uşaq ac qalanda qarpızı balaca dişləri ilə didir, yemək istəyir, ağlayır ancaq onu kimsə eşitmir. Amma təsadüfən tapılmasaydı bu, bir ailənin faciəsi olardı. Bir daha qeyd etmək yerinə düşər ki,bu "nağılı" hər bir gənc ata-ananın oxuması onlara atalıq, analıq məsuliyyətini çox ciddiyyətlə aşılayardı.

"Toyuğun peçdə yanması". Bir vaxt külfədən qarpız tırının arxasına düşən Cavid indi bir az böyüyüb. Novruz bayramı qabağı yumurta döyüşünə çıxmaq gücündədir. Nənəsindən eşidib ki, ağ toyuğun yumurtası çox bərkdir. İndi onun məqsədi ağ toyuğu güdmək, yumurtasını bişirmək və döyüşdə qalib gəlməkdir. Şəfəq Nasir canlı dildə yaşayan, ancaq unudulmaqda olan sözlərdən məharətlə istifadə edir. Ağ toyuq yumurtlamamışdan qabaq qağala çalır. Yumurtayandan sonra isə qaqqıldayır. Qağala onun yumurtlamaq istəyini bildirir. Şəfəq Nasirin canlı dildən gələn sözləri işlətməyi, sanki onun uşaqlara dil dərsi keçmək təsiri bağışlayır. Cavid qağala çalan toyuğu tutub qucağında saxlayır. Səbirsizliklə gözləyir ki, yumurtanı versin. Amma qağala çalmaqda davam edən toyuq sərbəstlik olmadığı üçün yumurtlaya bilmir. Cavid hirslənib toyuğu yanan peçə basır: "Toyuğun səsi kəsildi. Bir azdan ütülmüş tük yanıq iyi evi başına götürdü. Cavid peçin qapağını açdı. Toyuğun canı çoxdan çıxmışdı. Cavid maşanı götürüb toyuğu ora-bura sürüşdürdü. Yumurta yox idi. Hirslə peçin qapısını çırpıb aynabənddən çıxdı. Həyətə düşüb sac qırağında əl-ayaq eləyən nənəsinin yanına gəldi. Mərcan nənə arxaya çevriləndə fağır-fağır dayanmış Cavidi gördü, nənənin bayaqkı hirsi-hikkəsi bircə anda çəkildi". Bu mənzərə də uşaqlarda acı təəssürat yaradır. Sanki hər bir uşağa dərs olur ki, ev heyvanları ilə, ev quşları ilə belə qəddar davranmaq olmaz. Şəfəq Nasirin bu hekayəsi də tərbiyəvi əhəmiyyəti ilə diqqəti cəlb edir. Balaca Cavidin hekayələr silsiləsindən "Pişiyin dirilməsi" də maraqla oxunur. Uşaqların ev heyvanlarına münasibəti məsələsi burada da diqqətdə saxlanılır. Balaca Cavid pişik balasını qucağına götürür. Onun miyoldamağını su istəməsi kimi başa düşür. İstəyir ki, ona su versin. Pişik isə belə vəziyyətdə su içmək istəmir. Cavid bilmir ki, balaca pişik - mavrı anasını istəyir, bəlkə də acdır. Amma Cavid ona su içizdirmək istəyir. Pişiyi səhəngə atır, səhəngi də yan üstə əyir ki, pişik su içsin ancaq pişik boğulub ölür. Pişiyin anası qəzəblidir. Cavid onu tutub çalaya atır, üstünə də xaşşəvəl yığır, torpaqlayır. Hadisəni nənə eşidir. Axır ki, torpağa quylanmış pişiyi çıxarırlar. Nənənin təsirli söhbətlərindən sonra Cavid kövrəlir, hətta hönkürüb ağlayır. Bir sözlə pişiyi quylandığı yerdən çıxarırlar. Ancaq hadisə qismən də olsa yaxşı qurtarır. Pişik dirilir. Bu Cavidi çox sevindirir. Və şübhəsiz həmyaşıdları olan oxucular kimi o da ev heyvanları ilə necə davranmağı haqda daha aydın qənaətə gəlir. Müəllifin də məqsədi elə budur.

"Məmmədin bir yay gecəsi". Bir evdə iki Məmməd var. Biri babadır, biri də nəvə. Bu hekayə babanın xəstələnməyi ilə başlayır. Nəvə Məmməd babasının xətrini çox istəyir. Təkcə ona görə yox ki, baba da onu çox istəyir. Məmməd özünü babası kimi güclü, qüdrətli görmək istəyir. Onun keçmişlə bağlı söhbətləri Məmməddə maraqlı təəssüratlar oyadır. Əslində Məmməd elə babasının söhbətləri ilə böyüyür. Babası xəstələndiyinə görə onun yanından əl çəkmir, hətta onun sağalmağını da müşahidə edir. Babasının gördüyü işlərə şərik olmaqla öz böyüklüyünü, cəsarətini də göstərmək istəyir. Baba sağalandan sonra su istəyən bağı-bağçanı suvarmalıdır. Bunun üçün gecə vaxtı dəhnəyə getməlidir, həyətə su gətirməlidir. Nənədən xəlvət baba, nəvə razılığa gəlir ki, gecəni bir yerdə keçirsinlər. dəhnədən su gətirib bağı suvarsınlar. Müəllif hekayədə epizodik xarakter daşıyan obrazlara da xüsusi diqqət yetirir. Sevdimalı kişi su növbəsi ilə bağlı hekayəyə daxil olur, ancaq maraqlı ştrixlərlə yadda qalır. Suyun növbəliliyi, halallıq məsələləri, adamların bir-birinə inamı... bütün bunlar bir gedəcə Məmməd üçün maraqlı dərs olur. Hətta baba bir igidlik nağılı da danışır. Məmmədin atasının dayısı Vəli bəyin hələ də dildə, ağızda dolanan adı haqqındakı bu nağıl da çox maraqlıdır. Müharibə vaxtı kənddə ölənlər dəfn olunanadan sonra hansısa bir vəhşi, yırtıcı tərəfindən çıxarılır, yeyilir. Kimsə cəsarət edib qəbirstanlığa gedə bilmir. Ancaq Vəli bəy beşatılanını, tapancasını götürüb qəbirstanlıqda gecə keşik çəkir və həmin yırtıcını öldürür.

Müəllif həmin yırtıcı haqqında geniş danışmasa da, bunun xalq arasında goreşən, kaftar adıyla tanınan elmi ədəbiyyatda xallı canavar kimi qeyd olunan leşyeyən heyvan olduğu da bilinir: "Bir gün həmən bu Vəli bəy - atanın dayısı mənə dedi ki, Məmməd, mən bu işin vacehinə çatacam. O arvadın səsi ürəyimin başını göynədir. Dedim, a kişi, çox sənin təki deyən olub. Elə ki, gejə düşür, hamı qorxusundan qayıdır evinə. Dinmədi. Elə oldu ki, kənddə yenə bir adam öldü. Apardıq dəfn elədik. Gejə düşməmiş Vəli bəy geyinər, gizlincə beşatılanı, tapançasını götürüb evdən çıxar, düzəllənər düz qəbiristanlığa, gör indi nə olub? Kişi nətəhər danışıbsa, elə heylədə də günü bu günəcən yadımdadı". Bu bir neçə kəlmədən sonra oxucu, yəni Məmmədin həmyaşıdları hadisənin necə qurtarmağını çox diqqətlə izləyirlər. Bu da uşaqlarda hər hansı bir gözlənilməzliyə qarşı mənəvi psixoloji təlqin aşılayır. Müəllif öz oxucularını cəsarətli görmək istəyir. Elə Vəli bəy kimi.

Vəli bəy həmin yırtıcını öldürür. Məmmədin yaddaşında Vəli bəy igid, qorxmaz bir insan kimi qalır. Müəllif hekayəsini u.şaq marağını təmin edən motivlər əsasında qurur. Ancaq Məmmədi göz bəbəyi kimi qoruyan nənə bilmir ki, həmin gecə nəvəsi babası ilə birgə dəhnəyə gedib, arx açıb, bağı suvarıb. Və üstəlik, igidlik dərsi də alıb. Baba və nəvə gecəki ağır işdən və dərin təəsüratlı nağıldan sonra, səhər açılana yaxın evə qayıdır və dincəlməli olur, onlar şirin yuxuya gedirlər. Nənə baba və nəvənin bir yerdə yatmağını görəndə gecə nələrin baş verdiyini anlayır. Bilir ki, balaca Məmməd nənəsini yuxuya verib babası ilə birgə gecə səfərinə çıxıb.

Nənə bütün bunları başa düşür. Hiss olunur ki, nəvəsinin cəsarəti, qoçaqlığı, gecə yuxusuna dözməyi, zəhmətə qatlaşmağı onu qürurlandırır. Daha heç nə demir, öz işinin arxasınca gedir.

Şəfəq Nasirin "Məmmədin bir yay gecəsi" hekayəsindən çıxan nəticə budur ki, qalibləri kimsə mühakimə edə bilməz. Balaca Məmməd həmən gecənin qalibi idi.

*07.10.2020*